# The Noun (İsim)

## Part 1: <u>Morphological Composition of Nouns</u> (<u>İsimlərin morfoloji quruluşu</u>):

Əşyanın adını bildirən əsas nitq hissəsinə **İSİM** deyilir. İsim *kim (who)?* və *nə (what)?* suallarından birinə cavab verir və quruluşuna görə 3 yerə bölünür:

**I. Sadə isimlər (Simple Nouns)**
**II. Düzəltmə isimlər (Derivative Nouns)**
**III. Mürəkkəb isimlər (Compound Nouns)**

**I. Sadə isimlər (Simple Nouns)** – Bir kökdən ibarət olur, heç bir sözdüzəldici şəkilçi (prefiks və suffiks) qəbul etmirlər: *a town (şəhər), an axe (balta), a mistake (səhv)*

**II. Düzəltmə isimlər (Derivative Nouns)** – Kökdən və sözdüzəldici şəkilçidən (suffiks və prefikslərdən) ibarət olur: *friend<u>ship</u> (dostluq), free<u>dom</u> (azadlıq), weak<u>ness</u> (zəiflik)*

| **Suffixes (Son şəkilçilər):** | | | | |
|---|---|---|---|---|
| **– ness** | **– ship*** | **– hood** | **– dom** | **– er*** |
| ill**ness**<br>dark**ness**<br>sad**ness**<br>lazi**ness** | leader**ship**<br>member**ship**<br>friend**ship**<br>citizen**ship** | neighbour**hood**<br>child**hood**<br>mother**hood**<br>adult**hood** | wis**dom**<br>free**dom**<br>king**dom**<br>martyr**dom** | teach**er**<br>farm**er**<br>sing**er**<br>work**er** |
| **– or /– ar** | **– th** | **– ing*** | **– y*** | **– ment*** |
| act**or**<br>sail**or**<br>begg**ar**<br>li**ar** | wide-wid**th**<br>strong-streng**th**<br>deep-dep**th**<br>long-leng**th** | build**ing**<br>meet**ing**<br>mean**ing**<br>feel**ing** | difficulty<br>discovery<br>honesty | develop**ment**<br>move**ment**<br>entertain**ment**<br>agree**ment** |
| **– ess** | **– ant (ent)** | **– ee(r)** | **– (a)tion** | **–(s)ion** |
| host**ess**<br>waitr**ess**<br>poet**ess**<br>actr**ess** | assist**ant**<br>serv**ant**<br>stud**ent** | refugee<br>employee<br>referee<br>engin**eer** | inform**ation**<br>combin**ation**<br>imagin**ation**<br>compos**ition** | inven**tion**<br>collec**tion**<br>discus**sion**<br>impres**sion** |
| **–age** | **–ure (ture)** | **– ity (-ty)** | **– ist** | **– ism** |
| marri**age**<br>carri**age**<br>post**age**<br>pack**age** | depart**ure**<br>fail**ure**<br>creat**ure**<br>mix**ture** | similar**ity**<br>national**ity**<br>curios**ity**<br>cruel**ty** | art**ist**<br>novel**ist**<br>scient**ist**<br>flor**ist** | real**ism**<br>hero**ism**<br>tour**ism**<br>human**ism** |
| **– al** | **– ics** | **– ance,-ence** | **– ery (ry)** | **– an (-ian)** |
| approv**al**<br>propos**al**<br>arriv**al**<br>surviv**al** | phonet**ics**<br>polit**ics**<br>linguist**ics** | assist**ance**<br>perform**ance**<br>differ**ence**<br>exist**ence** | robb**ery**<br>slav**ery**<br>brav**ery**<br>bak**ery** | librar**ian**<br>histor**ian**<br>music**ian**<br>magic**ian** |
| **– cy** | **– t** | **– ese** | **– ative** | Sözlərin tərcüməsi üçün **BAX** səh, 42 |
| urgency<br>accuracy | heigh**t**<br>weigh**t** | Chin**ese**<br>Japan**ese** | represent**ative** | |



Scanned by TapScanner

**Prefixes (Ön şəkilçilər):**

| – dis | – mis | – un | – in |
|---|---|---|---|
| **dis**agreement *(narazılıq)* **dis**appearance *(yoxa çıxma)* | **mis**fortune *(uğursuzluq)* **mis**behaviour *(pis davranış)* | **un**employment *(işsizlik)* **un**happiness *(bədbəxtlik)* | **in**accuracy *(qeyri-dəqiqlik)* **in**dependence *(müstəqillik)* |

**Qeyd 1:** Prefikslər və suffikslər arasındakı 2 fərqi yadda saxlayın:

1) Prefiks sözün əvvəlinə qoşulduğu halda, suffiks sözün sonuna əlavə olunur.
2) Suffikslər bir nitq hissəsindən başqa nitq hissəsi düzəldə bildiyi halda, prefikslər yeni nitq hissəsi yarada bilmir, onlar sadəcə sözün mənasını dəyişirlər.

*Ex: employ (işə götürmək) – employ**ment** (iş, məşğulluq)* **feil → isim**
*employment (iş, məşğulluq) – **un**employment (işsizlik)* **isim → isim**

**Qeyd 2: "ship"** ingilis dilində təkcə isim düzəldən şəkilçi kimi deyil, həmçinin **"gəmi"** mənasında müstəqil söz kimi işlənib **mürəkkəb isim** düzəldə bilir:
***spaceship*** *(kosmik gəmi),* ***warship*** *(müharibə gəmisi)* , ***steamship*** *(paroxod),* ***battleship*** *(hərbi gəmi)*

**Qeyd 3: "er"** təkcə isim düzəldən şəkilçi kimi deyil, həmçinin **sifətə və zərfə** artırılıb **müqayisə dərəcəsi** yarada və yaxud **sözün tərkib hissəsi** kimi işlənə bilir:
***Düzəltmə isim (feil+er):*** *worker, dancer, thinker, drawer, writer, driver, teacher, robber*
***Müqayisə dərəcəsi:*** *smaller, larger, higher, thinner, farther, warmer, colder, faster, lower*
***Sadə isim:*** *father, butter, danger, tower, number, matter, member, winter, brother, soldier, weather, banner, paper, mother, answer, silver, water, letter, flower, tiger*

**Qeyd 4: "ing"** həm **isim** düzəldən şəkilçi, həm **sifət** düzəldən şəkilçi, həm **feilin davamedici zamanını** düzəldən şəkilçi həm də **sözün tərkib hissəsi** kimi işlənə bilir:
***Düzəltmə isim****: beginning, building, painting, drawing, meeting*
***Sifət****: interesting, boring, surprising, exciting, tiring*
***Davamedici zaman:*** *is playing, is going, is speaking*
***Sözün tərkib hissəsi (sadə isim):*** *evening, ceiling*

**Qeyd 5: "y"** təkcə isim düzəldən şəkilçi kimi deyil, həmçinin **sifət** düzəldən şəkilçidir.
***isim:*** *discovery, honesty, difficulty*
***sifət:*** *sunny, foggy, rainy, frosty*

**Qeyd 6:** Aşağıdakı sözlər **–ment** ilə bitsələr də **sadə** isimlərdir:
***moment*** *(an),* ***cement*** *(sement),* ***element*** *(ünsür),* ***monument*** *(abidə),* ***document*** *(sənəd),* ***instrument*** *(alət),* ***parliament*** *(parlament)*

**III. Mürəkkəb isimlər (Compound Nouns)** – İki və daha çox sözün birləşməsi ilə düzəlir. *post+man= postman (poçtalyon); ear+ring= earring (sırğa)*
Onlar ya **bitişik**, ya **defislə**, ya da **ayrı** yazılır.

**Qeyd:** Test toplusunda bu bölmənin yeni sözləri ilə **səhifə 42**-də tanış ola bilərsiz.



Scanned by TapScanner

## Part II: Morphological and Semantic Characteristics of Nouns

- **Xüsusi isimlər** (Proper nouns)
- **Ümumi isimlər** (Common Nouns)
- **Sayılabilən isimlər** (Countable nouns)
- **Sayılabilməyən isimlər** (Uncountable nouns)
- **Tək isimlər** (Singular nouns)
- **Cəm isimlər** (Plural nouns)

Mənasına görə isimlər iki qrupa bölünür: **Xüsusi isimlər / Ümumi isimlər**
**Xüsusi isimlər**: müəyyən şəxslərə, anlayışlara, ərazilərə, əşyalara verilən **adları** bildirir:
Ex: *Georgia, Tbilisi, Sunday, December, Christmas, Samad Vurgun*

**Ümumi isimlər**: **bütöv** bir **sinfə** aid şəxsləri, əşyaları, anlayışları bildirir:
Ex: *a teacher, a classroom, a blackboard, a car*

| **Xüsusi isimlər** (Proper nouns) | **Ümumi isimlər** ( Common Nouns) |
|---|---|
| 1. Həmişə böyük hərflə yazılır. | 1. Həmişə kiçik hərflə yazılır. |
| 2. *Cəmlənə bilmir. | 2. Cəmdə işlənə bilir. |
| 3. Qarşısında **rəqəm** işlənmir. | 3. Qarşısında **rəqəm** işlənə bilir. |
| 4. *Artikl **(a/an/the)** qəbul etmir. | 4. Qarşısında artikl işlənə bilir. |
| **Qeyd:** Yalnız xüsusi isim **bütöv bir ailəni** bildirərsə, **the** artiklı qəbul edə bilər və bu zaman mütləq **cəm şəkilçisi (-s, - es)** də qəbul etməlidir.<br>Ex: ***The** Smith**s**', **The** Nickson**s**'* | |

Ümumi isimlər öz növbəsində ***sayılabilən və sayılabilməyən** isimlərə* ayrılır:

| **Sayılabilən isimlər (Countable nouns)** | **Sayılabilməyən isimlər (Uncountable nouns)** |
|---|---|
| 1. Həm **təkdə**, həm də **cəmdə** işlənə bilər:<br>*a book – books*<br>**Lakin:** İsimlər cəmlənərkən qarşısındakı **"a/an"** artiklı düşməlidir. Çünki, **a/an** artiklı **"one"** (**bir**) sözündən əmələ gəlib: → ~~*a books*~~ | 1. Cəmlənə bilmir, **həmişə təkdə** olurlar:<br>*bread / ~~breads~~* |
| 2.* Qarşısında **a/an** artiklları işlənə bilər, həmçinin "**an**other" əvəzliyi işlənir:<br>*a tree, an apple, another book*<br>**An + sait** səslə başlanan isim: *an umbrella*<br>**A + samit** səslə başlanan isim: *a teacher* | 2. *Qarşısında **a/an** artiklları, həmçinin "**an**other" əvəzliyi işlənmir:<br>~~a furniture~~<br>~~an information~~<br>~~another advice~~ |
| 3. Qarşısında **rəqəm** işlənə bilər və bu zaman isim mütləq cəmlənməlidir:<br>*a problem – **two** problem**s***<br>**** 1 (one) rəqəmi istisnadır!***<br>***one** problem– **one** ~~problems~~* | 3. Qarşısında **rəqəm** işlənə bilməz:<br>~~*five advice*~~ |



Scanned by TapScanner

| | |
|---|---|
| 4. "***Many***, ***few***, ***a few***, ***very few***, ***only a few***, ***a number of***, ***the number of***, ***several*** kimi miqdar bildirən sözlərlə işlənir və **cəmlənir**. Ex: ***Many*** *students* – ~~*Many student*~~ | 4. "***Little***, ***a little***, ***very little***, ***only a little***, ***much*** kimi miqdar bildirən sözlərlə işlənir və həmişə **təkdə** olur. Ex: *Much information* – ~~*Much informations*~~ |
| ***Qeyd: a lot of*** (çox), ***lots of*** (çox), ***plenty of*** (çox), ***some***, ***any***, ***no*** həm sayılan, həm də sayılmayan isimlərlə işlənə bilir. | |

**Diqqət !!!** Sayılabilən tək isimlər tək başına istifadə oluna bilməz, onlardan əvvəl mütləq bir təyinedici söz işlənməlidir, məsələn, **artikl** (a / an / the), **yiyəlik əvəzliyi** (my – *mənim*, her – *onun*, our – *bizim* və s.) ya da **işarə əvəzliyi** (this – *bu*, that – *o*).

Ex: ~~*book*~~ olmaz! → *a book / my book / this book* olar.

*We can't get into the house without* ***a key.*** *(not key)*

*I want* ***an apple.*** *(not apple)*

* Sayıla bilən tək isimlərdən fərqli olaraq, cəm isimlər tək başına istifadə edilə bilər:
Ex: *I like* ***apples.***

* **"A"** və ya **"an"** artiklnın istifadəsi sözün başladığı hərfdən deyil, **səsdən asılıdır**!
*Ex: an hour* [ænˈaʊə], *a university* [ə juːnɪˈvəːsɪtɪ]

* Sayılmayan isimlərin xəbəri hər zaman **təkdə** olur:
Ex: *Advice is (was / has / helps)* → ~~*Advice are / were / have / help*~~ olmaz!

* Sayılmayan isimlərin qarşısında **təkdə** olan işarə əvəzlikləri işlənir:
Ex: *This / that beer* → ~~*Those / these beer*~~ olmaz!

* Bəzən **sayılabilməyən** isim sayıla bilən **tək** isimlərin qarşısında təyin funksiyasında çıxış edir. Bu zaman **a / an** artiklı **işlənir** və ikinci ismə aiddir.

| | | | |
|---|---|---|---|
| ~~a furniture~~ | *(mebel)* | **a** furniture shop | *(mebel mağazası)* |
| ~~a news~~ | *(xəbər)* | **a** news agency | *(xəbər agentliyi)* |
| ~~a news~~ | *(xəbər)* | **a** news programme | *(xəbər proqramı)* |
| ~~an information~~ | *(məlumat)* | **an** information board | *(məlumat lövhəsi)* |
| ~~an information~~ | *(məlumat)* | **an** information centre | *(məlumat mərkəzi)* |
| ~~a chalk~~ | *(təbaşir)* | **a** chalk painter | *(təbaşir rəssamı)* |
| ~~a sand~~ | *(qum)* | **a** sand artist | *(qum rəssamı)* |
| ~~a peace~~ | *(sülh)* | **a** peace symbol | *(sülh rəmzi)* |
| ~~a tea~~ | *(çay)* | **a** tea glass | *(çay stəkanı)* |
| ~~a stone~~ | *(daş)* | **a** stone wall | *(daş divar)* |
| ~~a butter~~ | *(yağ)* | **a** butter knife | *(yağ bıçağı)* |
| ~~a success~~ | *(uğur)* | **a** success story | *(uğur hekayəsi)* |
| ~~a silk~~ | *(ipək)* | **a** silk stocking | *(ipək corab)* |



Scanned by TapScanner

## Sayılmayan isimlərin təsnifatı

İngilis dilində sayılmayan isimlər çoxdur və onları daha yaxşı yadda saxlamaq üçün şərti olaraq aşağıdakı qruplara ayırmaq olar:

1. **Maye halında olan isimlər:** petrol – *benzin,* oil – *bitki yağı,* coffee – *qəhvə,* water– *su,* tea – *çay,* lemonade – *limonad,* milk – *süd,* wine – *şərab,* blood – *qan* və s.

2. **Mücərrəd isimlər:** space – *məkan,* energy – *enerji,* advice– *məsləhət,* beauty– *gözəllik,* time – *vaxt,* education – *təhsil,* wealth – *sərvət* , happiness – *xoşbəxtlik* , honesty – *dürüstlük* , health – *sağlamlıq,* help – *kömək* , laughter – *gülüş* , intelligence – *zəka* , knowledge – *bilik* , justice – *ədalət,* truth – *həqiqət,* information – *məlumat,* news – *xəbər,* homework – *ev tapşırığı* , work – *iş* və s.

**Qeyd:** Lakin sayıla bilən mücərrəd isimlər də var*:* an idea – *ideya*, an impression – *təəssürat*, a voice – *səs*; a storm – *firtına*, a cloud – *bulud*, a wind – *külək;* a dream – *arzu*, a wish – *arzu*; a hope – *ümid*, an hour – *saat*; a joke – *zarafat*, a problem – *problem.*

3. **Ümumi məna daşıyan bəzi isimlər:** *luggage, money, furniture, traffic, fruit*
**Qeyd:** Bu isimlər özü sayılmasa da onların növləri <u>sayılır</u>, <u>artikl qəbul edir</u>, <u>cəmlənə bilir</u>:
*manats, dollars, a sofa, chairs, an apple, pears, five armchairs*

4. **Yeyinti məhsulları:** bread – *çörək*, cheese – *pendir*, butter – *kərə yağı*, meat – *ət* və s.

5. **Metal və Material adları:** gold – *qızıl,* silver – *gümüş,* iron – *dəmir*, steel – *polad*, bronze – *bürünc*, wood – *taxta,* glass – *şüşə,* clay – *gil,* concrete – *beton,* paper – *kağız,* silk – *ipək*, wool – *yun*, cotton – *pambıq* və s.

6. **Təbiət hadisələri:** darkness – *qaranlıq* , snow – *qar*, fog – *duman*, heat – *istilik*, humidity – *rütubət*, hail – *dolu*, lighting – *şimşək*, rain – *yağış*, thunder – *ildırım*, sunshine – *günəş işığı*, weather – *hava* və s.

7. **İdman və oyunlar:** baseball – *beysbol*, billiards – *bilyard*, chess – *şahmat*, golf – *qolf*, rugby – *reqbi*, football – *futbol*, soccer – *futbol*, tennis – *tennis* və s.

8. **Elm və fənn adları:** chemistry – *kimya*, mathematics – *riyaziyyat*, history – *tarix*, psychology – *psixologiya* , literature – *ədəbiyyat* və s.

9. **Fəaliyyətlər (cerund):** driving – *sürücülük* , swimming – *üzgüçülük*, walking – *gəzinti*, running – *qaçış*, travelling – *səyahət*, dancing – *rəqs* və s.

10. **Xəstəliklər:** Cancer – *xərçəng*, Flu – *qrip*, Measles – *qızılca*, Smallpox – *suçiçəyi*, Pneumonia – *sətəlcəm* və s.

11. **Dillər:** Russian – *Rus dili,* Greek – *Yunan dili*, German – *Alman dili,* English – *İngilis dili*, Arabic – *Ərəb dili,* Chinese – *Çin dili,* Spanish – *İspan dili* və s.

12. **Qaz halındakı maddələr:** nitrogen – *azot*, oxygen – *oksigen*, air – *hava*, steam–*buxar*, smoke – *tüstü* , smog – *qatı duman* və s.

13. **Kiçik hissəciklərdən ibarət maddələr** (toz və qırıntı şəklində)**:** rice – *düyü*, flour–*un*, corn – *qarğıdalı*, dust – *toz*, salt – *duz*, sugar – *şəkər*, pepper – *istiot*, sand – *qum* və s.

**Qeyd:** Sayılmayan isimlərin tam siyahısı üçün baxın **səhifə → 32**



Scanned by TapScanner

**Qeyd: Sayılmayan isimlərin çəkisindən, ölçüsündən, həcmindən söhbət getdikdə onlar xüsusi ölçü vahidləri ilə göstərilir.**

- ***a slice of – bir dilim (slices)***
  *a slice of meat – bir dilim ət*
  *a slice of lemon – bir dilim limon*
  *a slice of butter – bir dilim yağ*
  *a slice of cheese – bir dilim pendir*
  *a slice of bread – bir dilim çörək*

- ***a loaf of – bir ədəd (loaves)***
  *a loaf of bread – bir ədəd çörək*

- ***a cup of – bir fincan (cups)***
  *a cup of tea – bir fincan çay*
  *a cup of coffee – bir fincan kofe*

- ***a box of – bir qutu (boxes)***
  *a box of matches – bir qutu kibrit*
  *a box of chocolates – bir qutu şokolad*

- ***a bunch of – bir dəstə (bunches)***
  *a bunch of keys – bir dəstə açar*
  *a bunch of flowers – bir dəstə gül*
  *a bunch of grapes – bir salxım üzüm*

- ***a sack of – bir kisə (sacks)***
  *a sack of wheat – bir kisə buğda*
  *a sack of flour – bir kisə un*
  *a sack of coal – bir kisə kömür*

- ***a bar of – bir plitka (bars)***
  *a bar of chocolate – bir plitka şokolad*
  *a bar of soap – bir parça sabun*

- ***a lump of – bir parça (lumps)***
  *a lump of sugar – bir parça qənd*
  *a lump of chalk – bir parça təbaşir*

- ***a bowl of – bir kasa (bowls)***
  *a bowl of rice – bir kasa düyü*
  *a bowl of porridge – bir kasa sıyıq*

- ***a game of – bir oyun (games)***
  *a game of chess – bir oyun şaxmat*
  *a game of draughts – bir oyun şaşki*
  *a game of tennis – bir oyun tenis*

- ***a can of – bir dəmir qutu (cans)***
  *a can of honey – bir dolça bal*
  *a can of meat – bir qutu ət*
  *a can of oil – bir qutu yağ*

- ***a barrel of – bir çəllək (barrels)***
  *a barrel of oil – bir çəllək neft*
  *a barrel of beer – bir çəllək pivə*

- ***a kilo of – bir kilo (kilos)***
  *a kilo of sugar – bir kilo qənd*
  *a kilo of potatoes – bir kilo kartof*
  *a kilo of apples – bir kilo alma*

- ***a glass of – bir stəkan (glasses)***
  *a glass of water – bir stəkan su*
  *a glass of milk – bir stəkan süd*

- ***a piece of – bir parça (pieces)***
  *a piece of music – bir parça musiqi*
  *a piece of advice – bir az məsləhət*
  *a piece of chalk – bir parça təbaşir*

- ***a bottle of – bir şüşə (bottles)***
  *a bottle of lemonade – bir şüşə limonad*
  *a bottle of milk – bir şüşə süd*

- ***a head of – bir baş (heads)***
  *a head of cabbage – bir baş kələm*
  *a head of cattle – bir baş mal qara*

- ***a basket of – bir səbət (baskets)***
  *a basket of grapes – bir səbət üzüm*
  *a basket of apples – bir səbət alma*

- ***a packet of – bir bağlama (packets)***
  *a packet of tea – bir paket çay*

- ***a pair of – bir cüt (pairs)***
  *a pair of trousers – bir cüt şalvar*
  *a pair of scissors – bir cüt qayçı*
  *a pair of gloves – bir cüt əlcək*
  *a pair of socks – bir cüt corab*
  *a pair of earrings – bir cüt sırğa*

- ***a couple of – bir cüt (couples)***
  *a couple of weeks – iki həftə*

- ***a sheet of – bir parça (sheets)***
  *a sheet of paper – bir parça kağız*
  *a sheet of metal – bir parça metal*

- ***a plate of – bir boşqab(plates)***
  *a plate of soup – bir boşqab sup*
  *a plate of porridge – bir boşqab sıyıq*



Scanned by TapScanner

*** Qeyd:** Bu ifadələrin həm tək, həm də cəm forması mövcuddur və əgər bu ifadələr cümlənin mübtədası olarsa xəbər **"of "-dan əvvəlki isim**lə uzlaşacaq.
*Ex: A can of honey* ***is*** *on the table – Bir dolça bal stolun üstündədir.*
*Three cans of honey* ***are*** *on the table – Üç dolça bal stolun üstündədir.*

**Qeyd:** İngilis dilində bəzi isimlər **həm sayılan, həm də sayılmayan** isim kimi işlənə bilir.

| | | |
|---|---|---|
| **Glass** | **şüşə** – sayılmır | **stəkan** – sayılır |
| | The glass of the window is new<br>*– Pəncərənin şüşəsi yenidir.* | We drink some glasses of water everyday.<br>*– Biz gündə bir neçə stəkan su içirik.* |
| **Time** | **vaxt** – sayılmır | **dəfə** – sayılır |
| | I don't have much time<br>*– Mənim çox vaxtım yoxdur.* | We brush our teeth two times a day.<br>*–Biz dişlərimizi gündə iki dəfə fırçalayırıq* |
| **Light** | **işıq** – sayılmır | **lampa** – sayılır |
| | The light is too weak in the room.<br>*– Otaqda işıq çox zəifdir.* | Put all the lights on, please.<br>*– Bütün lampaları yandırın zəhmət olmasa* |
| **Iron** | **dəmir** – sayılmır | **ütü** – sayılır |
| | Iron is stronger than other metals –<br>*Dəmir digər metallardan daha güclüdür* | We have a new electric iron.<br>*– Bizim yeni elektrik ütümüz var.* |
| **Wood** | **taxta** – sayılmır | **meşə** – sayılır |
| | This door is made of wood.<br>*– Bu qapı taxtadan düzəldilib.* | Everybody must protect woods.<br>*– Hər kəs meşələri qorumalıdır.* |
| **Hair** | **saç** – sayılmır | **tük** – sayılır |
| | She has black hair.<br>*– Onun qara saçı var.* | There are two hairs on the pillow.<br>*– Yastıqda 2 ədəd tük var.* |
| **Work** | **iş** – sayılmır | **əsər** – sayılır |
| | His work is so complicated.<br>*– Onun işi çox qarışıqdır.* | Rustaveli's works are famous.<br>*– Rustavelinin əsərləri məşhurdur* |
| **Paper** | **kağız** – sayılmır | **qəzet** – sayılır |
| | Take much more paper.<br>*– Daha çox kağız götürün.* | He bought some papers yesterday.<br>*– O dünən bir neçə qəzet aldı.* |
| **Pepper** | **istiot** – sayılmır | **bibər** – sayılır |
| | I like much pepper in my soup.<br>*– Mən supda çox istiotu xoşlayıram.* | Yesterday I bought two kilos of peppers.<br>*– Mən dünən iki kilo bibər aldım.* |
| **Land** | **torpaq** – sayılmır | **ölkə** – sayılır |
| | He wanted to buy land there.<br>*– O, orada torpaq almaq istəyirdi.* | Gulliver travelled to strange, faraway lands.<br>*– Qulliver qəribə, uzaq ölkələrə səfər edirdi* |
| **Chicken** | **toyuq əti** – sayılmır | **cücə** – sayılır |
| | Would you like some chicken?<br>*– Bir az toyuq əti istəyirsiz?* | There are a lot of chickens in the yard.<br>*– Həyətdə çoxlu cücələr var.* |
| **Room** | **boş yer** – sayılmır | **otaq** – sayılır |
| | There is no room in the bookshelf.<br>*– Kitab rəfində boş yer yoxdur.* | There are four rooms in our flat.<br>*– Bizim mənzildə 4 otaq var.* |
| **Fish** | **balıq əti** – sayılmır | **balıq** – sayılır |
| | There wasn't much fish in the fish soup.<br>*– Balıq şorbasında balıq az idi.* | I didn't catch many fish yesterday.<br>*– Dünən mən çoxlu balıq tuta bilmədim.* |
| **Lamb** | **quzu əti** – sayılmır | **quzu** – sayılır |
| | I'm cooking lamb tonight.<br>*– Bu axşam quzu əti bişirəcəm.* | We have a lot of lambs on our farm.<br>*– Bizim fermada çoxlu quzular var.* |



Scanned by TapScanner

# İsimlərin cəmi (Plural of Nouns)

**1.** Adətən isimlərin cəmi onların sonuna **"-s''** əlavə etməklə düzəlir:

*a book (kitab)* → *books (kitablar)*
*a day (gün)* → *days (günlər)*

**Qeyd:** İsimlər cəmlənərkən qarşısındakı **"a/an"** artiklı düşməlidir. Çünki, **a/an** artiklı **"one"** (**bir**) sözündən əmələ gəlib və yalnız sayılabilən tək isimlərin qarşısında işlənə bilir.

Ex: *a book* → ~~*a books*~~ → *books*

**2.** Sonu **"s", "ss", "sh", "ch", "tch", "x", "o", "z"** hərfləri ilə bitən isimlərin cəmi **"-es''** əlavə etməklə düzəlir:

| | |
|---|---|
| *a bus (avtobus)* | → *buses (avtobuslar)* |
| *a glass (stəkan)* | → *glasses (stəkanlar)* |
| *a bush (kol)* | → *bushes (kollar)* |
| *a bench (skamya)* | → *benches (skamyalar)* |
| *a match (kibrit)* | → *matches (kibritlər)* |
| *a box (qutu)* | → *boxes (qutular)* |
| *a potato (kartof)* | → *potatoes (kartoflar)* |
| *a quiz (ilkin imtahan)* | → *quizzes (ilkin imtahanlar)* |

**Qeyd:** Aşağıdakı latın mənşəli sözlər **"o"** hərfi ilə bitsələr də cəm forması **"–s"** ilə düzəlir:

| | | |
|---|---|---|
| *a kilo* → *kilos* | *a video* → *videos* | *a pro* → *pros* |
| *a zero* → *zeros* | *a shampoo* → *shampoos* | *a tobacco* → *tobaccos* |
| *a zoo* → *zoos* | *a kangaroo* → *kangaroos* | *a tango* → *tangos* |
| *a piano* → *pianos* | *a studio* → *studios* | *a tattoo* → *tattos* |
| *a solo* → *solos* | *a stereo* → *stereos* | *an auto* → *autos* |
| *a radio* → *radios* | *a patio* → *patios* | *an audio* → *audios* |
| *a photo* → *photos* | *a bamboo* → *bamboos* | |

**Qeyd:** Aşağıdakı sözlər cəmlənərkən həm **-s**, həm də **- es** qəbul edə bilirlər:

| | |
|---|---|
| *a volcano* → *volcanos / volcanoes* | *a mosquito* → *mosquitos / mosquitoes* |
| *a tornado* → *tornados / tornadoes* | *a motto* → *mottos / mottoes* |
| *a buffalo* → *buffalos / buffaloes* | |

**3.** İngilis dilində 7 isim vardır ki, onların **cəmi kökdəki saitin dəyişməsi** ilə düzəlir:

| | |
|---|---|
| *a man (kişi)* | → *men (kişilər)* |
| *a woman (qadın)* | → *women (qadınlar)* |
| *a foot (ayaq)* | → *feet (ayaqlar)* |
| *a tooth (diş)* | → *teeth (dişlər)* |
| *a goose (qaz)* | → *geese (qazlar)* |
| *a louse (bit)* | → *lice (bitlər)* |
| *a mouse (siçan)* | → *mice (siçanlar)* |
| ***(BUT a computer mouse → computer mouses)*** | |

**Qeyd:** Bu isimlər nə təkdə nə də cəmdə **"s"** sonluğu qəbul etmir.

~~mans~~
~~womens~~
~~foots~~ ➡ **Olmaz!**
~~geeses~~
~~louses~~



Scanned by TapScanner

**4. Child** və **ox** sözlərinin cəmi **"– en"** əlavə etməklə düzəlir:

*a child (uşaq) → children (uşaqlar)*
*an ox (öküz) → oxen (öküzlər)*

**5.** Əgər isim **"-y"** hərfi ilə bitərsə 2 hal mümkündür:

| **a) "y"** hərfindən əvvəl ***sait*** gələrsə, sadəcə **"-s"** əlavə olunur. | **b) "y"** hərfindən əvvəl ***samit*** gələrsə, **"-y"** düşür, **"ies"** əlavə olunur. |
|---|---|
| *Ex: boy (oğlan) → boys (oğlanlar)*<br>*toy (oyuncaq) → toys (oyuncaqlar)*<br>*day (gün) → days (günlər)*<br>*key (açar) → keys (açarlar)*<br>*bay (körfəz) → bays (körfəzlər)*<br>*ray (şüa) → rays (şüalar)*<br>*guy (oğlan) → guys (oğlanlar)*<br>*tray (məcməyi) → trays (məcməyilər)* | *Ex: a baby → babies* ~~**babys**~~<br>*a lady → ladies* ~~**ladys**~~<br>*a city → cities* ~~**citys**~~<br>*a country → countries* ~~**countrys**~~<br>*a library → libraries* ~~**librarys**~~<br>*a territory → territories* ~~**territorys**~~ |

**6.** İngilis dilində sonu **"f "** və ya **"fe"** ilə bitən 12 isim vardır ki, cəmlənərkən **– f, – fe** düşür, **– ves** əlavə edilir.

| | |
|---|---|
| *1.a leaf (yarpaq) → leaves (yarpaqlar)* | *7.a calf (buzov) → calves (buzovlar)* |
| *2.a wife (arvad) → wives (arvadlar)* | *8.a loaf (bulka) → loaves (bulkalar)* |
| *3.a knife (bıçaq) → knives (bıçaqlar)* | *9.a shelf (rəf) → shelves (rəflər)* |
| *4.a half (yarı) → halves (yarılar)* | *10.a sheaf (dəstə) → sheaves (dəstələr)* |
| *5.a life (həyat) → lives (həyatlar)* | *11.a thief (oğru) → thieves (oğrular)* |
| *6.a wolf (canavar) → wolves (canavarlar)* | *12.a self (özü) → selves (özləri)* |

**Qeyd:** Lakin aşağıdakı isimlər cəmləndikdə **"f"** hərfi olduğu kimi qalır və sonuna **"-s"** əlavə olunur.

| | |
|---|---|
| *a roof (dam) → roofs (damlar)* | *a safe (seyf) → safes (seyflər)* |
| *a cliff (qaya) → cliffs (qayalar)* | *a gulf (körfəz) → gulfs (körfəzlər)* |
| *a chief ( rəis) → chiefs (rəislər)* | *a sheriff (şerif) → sheriffs (şeriflər)* |
| *a belief (inam) → beliefs (inanclar)* | *a proof (sübut) → proofs (sübutlar)* |
| *a muff (fərsiz) → muffs (fərsizlər)* | *a reef (rif) → reefs (riflər)* |
| *a cuff (şillə) → cuffs (şillələr)* | |

**Qeyd:** Aşağıdakı sözlər cəmlənərkən həm **-s**, həm də **- ves** qəbul edə bilirlər:

*a wharf (liman) → wharfs / wharves (limanlar)*
*a scarf (şərf) → scarfs / scarves (şərflər)*
*a hoof (dırnaq) → hoofs / hooves (dırnaqlar)*



Scanned by TapScanner

**7. Həmişə CƏM formada işlənən isimlər:**

– Belə isimlərin tək forması olmur.
– **a / an** artiklı heç vaxt qəbul etmir.
– xəbəri həmişə **cəmdə** (are/were/do/have/come/live) olur.
– onlarla işlənəcək işarə əvəzlikləri də cəmdə **(these / those)** olmalıdır.
– cəmdə olan əvəzliklər **(they / them / their)** ilə əvəz olunur.
– **birdən böyük** rəqəmlər (2,3,6,15,40 ... ) ilə işlənir.
– Bu isimləri **3 kateqoriyaya** bölmək olar:

| **A) İki hissədən ibarət olan isimlər:** | | |
|---|---|---|
| Trousers (şalvar)<br>Jeans (cins)<br>Spectacles (eynək)<br>Glasses (eynək)<br>Pyjamas (pijama)<br>Scissors (qayçı)<br>Shorts (şortik) | Tongs (kəlbətin)<br>Scales (tərəzi)<br>Clothes (paltar)<br>Binoculars (binokl)<br>Mittens (tək barmaq əlcək)<br>Gloves (əlcək)<br>Pants (qısa şalvar) | Handcuffs (qandal)<br>Pliers (kəlbətin)<br>Shoes (ayaqqabı)<br>Headphones (qulaqcıq)<br>Socks (corab)<br>Tights (triko) |
| **B) Sonu –s ilə bitən həmişə cəmdə olan toplu isimlər:** | | |
| Goods (mal / əmtəə)<br>Commodities (mal /əmtəə)<br>Stairs (pilləkan)<br>Contents (mündəricat) | Troops (qoşun)<br>Arms (silah)<br>Wages (maaş)<br>Riches (var-dövlət) | Belongings (şəxsi əşyalar)<br>Earrings (sırğa)<br>Valuables (qiymətli əşyalar) |
| **C) Sonu –s ilə bitməyən həmişə cəmdə olan toplu isimlər:** | | |
| police (polis)<br>cattle (mal-qara) | poultry (ev quşları)<br>gentry (zadəganlar) | people (camaat) |

Ex: *These (~~this~~) trousers are (~~is~~) new. They (~~it~~) suit (~~suits~~) me nicely.*
*The cattle are (~~is~~) grazing in the field.*

**Qeyd: Police** sözü təklikdə işlənərsə (özündən sonra isim gəlməzsə) həmişə cəmlik bildirir və xəbəri həmişə **cəmdə** (are/were/do/have/come/live) olur.
Lakin, **Police** sözündən sonra isim gələrsə **(man, woman, officer, car)** xəbər police sözü ilə deyil, **ondan sonra gələn isimlə uzlaşır.**

Ex: ***Police are** (~~is~~) looking for the thief in the street.*
*Police **officer is** looking for the thief in the street.*
*Police **officers are** looking for the thief in the street.*

**Qeyd: People** sözü **adamlar / camaat** mənasında cəmlik bildirir və xəbəri də cəmdə olur, lakin **xalq** mənasında təklik bildirir və **-s** cəm şəkilçisi qəbul edə bilir.
Ex: *Many young people are out of work.*
*The course studies the history of Africa and the **peoples** who lived there.*



Scanned by TapScanner

**8.** Tərkibində ***Man*** və ***Woman*** sözləri olan mürəkkəb isimlərdə:

**a)** bu sözlər əvvəldə gələrsə, mürəkkəb ismin hər iki tərəfi cəmlənir.

*Ex: a man-driver (kişi sürücü) → men-drivers (kişi sürücülər)*

*a man-servant (kişi qulluqçu) → men-servants (kişi qulluqçular)*

**b)** bu sözlər sonda gələrsə, yalnız bu sözlər cəmlənir.

*Ex: a statesman (dövlət xadimi) → statesmen (dövlət xadimləri)*

*a postman (poçtalyon) → postmen (poçtalyonlar)*

**9. "Norman", "Roman", "German", "human"** kimi sözlərdə **man** sözü həmin sözlərin tərkib hissəsi olduğu üçün bunlar mürəkkəb isim sayılmır və cəmi **–s** ilə düzəlir.

*Ex: Norman → Normans    Roman → Romans    German → Germans*

**10.** Defislə yazılan mürəkkəb isimlərin cəmi əsas məna daşıyan sözə **"s"** əlavə etməklə düzəlir.

*Ex: a brother-in-law (qayın) → brothers in law (qayınlar) (~~brother in laws~~ )*

*a baby-sitter (dayə) → baby-sitters (dayələr)*

**11.** Bitişik yazılan mürəkkəb isimlərin cəmi sözün sonuna **"s"** artırmaqla düzəlir.

*Ex: a schoolboy – schoolboys*

**12. Həmişə TƏKdə olan isimlər:**

– Bu isimlər sonu "s" ilə bitməsinə baxmayaraq həmişə **tək** halda olur.

– sayılmayan isimlər kimi qəbul olunur.

– **a / an** artiklı heç vaxt qəbul etmir.

– xəbəri həmişə təkdə **(is / was / does / has / comes / lives)** olur.

– onlarla işlənəcək işarə əvəzlikləri də təkdə **(this / that)** olmalıdır.

– təkdə olan əvəzliklər **(it)** ilə əvəz olunur.

– **rəqəmlər** ilə işlənə bilmir.

– Bu isimləri **3 kateqoriyaya** bölmək olar**:**

a) **news** sözü *(xəbər):*

b) **İdman** və **oyun** adları: *billiards, dominoes, draughts, aerobics, gymnastics, athletics*

c) **Elm** və **fənn** adı bildirən isimlər: *mathematics, economics, physics, phonetics, optics*

*Ex: This (~~these~~) news is (~~are~~) good.*

*Dominoes is (~~are~~) my favorite game.*

*Mathematics is (~~are~~) my favorite subject.*

**13. Təkdə və cəmdə eyni olan isimlər:**

Bu isimlər heç vaxt cəmlənmir.

| | | |
|---|---|---|
| *a sheep ( qoyun) →* | *sheep (qoyunlar)* | ~~***sheeps***~~ |
| *a deer (maral) →* | *deer (marallar)* | ~~***deers***~~ |
| *a fish (balıq) →* | *fish (balıqlar)* | ~~***fishes***~~ |
| *a swine (donuz) →* | *swine (donuzlar)* | ~~***swines***~~ |



Scanned by TapScanner

***Əlavə:***

*a grouse (tetra quşu) → grouse (tetra quşları)*
*a trout (alabalıq ) → trout (alabalıqlar)*
*a salmon (qızılbalıq) → salmon (qızılbalıqlar)*
*a series (sıra) → series (sıralar)*
*a species (növ) → species (növlər)*
*a means (vasitə) → means (vasitələr)*
*a corps (korpus ) → corps (korpuslar)*

***Qeyd: Bəzi millət adları da (Chinese, Japanese, Portugese, Swiss) bu qəbildəndirlər və cəmdə -s qəbul etmirlər.***

*a Chinese (çinli ) → the Chinese (çinlilər)*
*a Japanese (yapon) → the Japanese (yaponlar)*
*a Portuguese (portuqal) → the Portuguese (portuqaliyalılar)*
*a Swiss (isveçrəli) → the Swiss (isveçrəlilər)*

Bu isimlərin təkdə və cəmdə olması aşağıdakılardan asılıdır:
a) felin şəxs forması (xəbər)
b) qeyri müəyyən artikl (a / an)
c) qeyri müəyyən əvəzliklər (some, any)
d) işarə əvəzlikləri (this, that, these, those)
ə) təyini əvəzliklər (each, all, both, every ...)
f) təyinedicilər (many, few, a lot of , a few, lots of, several)

Ex: The sheep is in the yard (tək) → The sheep are in the yard (cəm)
I see a fish in the sea. (tək) → I see fish in the sea. (cəm)
These deer live in this forest. (cəm)
They have 2 horses and 10 sheep in the yard (~~10 sheeps~~)



Scanned by TapScanner

# Part III: <u>İsmin yiyəlik halı (Possessive Case)</u>

İngilis dilində ismin yiyəlik halı **2 yolla** düzəlir:
**a)** canlı isimlər – **'s** ilə və ya təkcə **apastrofla (')**
**b)** cansız isimlər **isim + of + isim** düsturu ilə

**1. Canlı, təkdə** olan isimlərin yiyəlik halı **-'s** ilə düzəlir.
*Ex: a scientist's invention – alimin ixtirası*
*a doctor's salary – həkimin maaşı*

**2. Canlı, cəmdə** olan isimlər **2 yolla** (necə cəmlənməsindən asılı olaraq) yiyəlik hala keçir:
**a) Cəmi "s" ilə düzələn** canlı isimlərin yiyəlik halı təkcə **apastrofla (')** düzəlir. Çünki, ***"iki -s"*** (cəmlik bildirən **–s** ilə yiyəlik hal bildirən **-'s) yanaşı gələ bilməz! *( s + 's olmaz)*.**

*Ex: scientists' inventions – alimlərin ixtiraları* — ~~***scientists's inventions***~~
*doctors' salaries – həkimlərin maaşları* — ~~***doctors's salaries***~~

* **Diqqət:** Sözün sonundakı **"-s"** cəm şəkilçisi deyil də sözün tərkibində olarsa bu zaman yiyəlik halı **-'s (apastrof -s)** ilə düzəlir.
Ex: *waitress's service,hostess's hospitality, actress's role* (sondakı **-ss** cəmlik bildirmir).

* **Ümumiyyətlə:** Sonu <u>**ss**</u> ilə bitən bütün isimlər **təkdədir**.
Ex: *progress, address, boss, class, dress, glass, access, actress, chess, poetess, waitress*

**b) Cəmi "s" ilə düzəlməyən** (kökdən dəyişən) canlı isimlərin yiyəlik halı **'s ilə** düzəlir.
*Ex: Children's rooms – Uşaqların otaqları* — ~~***Childrens' rooms***~~ — ~~***Children' rooms***~~
*Men's caps – Kişilərin papaqları* — ~~***Mens' caps***~~ — ~~***Men' caps***~~
*Women's hats – Qadınların şlyapaları* — ~~***Womens' hats***~~ — ~~***Women' hats***~~

**Nəticə:** Ümumiyyətlə bu aşağıdakı <u>2 kateqoriyadan</u> olan isimlərin **həm <u>tək</u>, həm də <u>cəm</u>** formasının **yiyəlik halı yalnız bir yolla <u>(-'s ilə</u>)** düzəlir.
***a) Cəmlənərkən kökdən dəyişən isimlər:***
*man's suit - men's suits* — ~~***mans' suits - mens' suits***~~
*woman's clothes - women's clothes* — ~~***womans' clothes - womens' clothes***~~
*mouse's hole - mice's holes* — ~~***mouses' holes – mices' holes***~~
*goose's neck - geese's necks* — ~~***gooses' necks – geeses' necks***~~
*child's room - children's rooms* — ~~***childs' rooms - childrens' rooms***~~
*ox's tail - oxen's tails* — ~~***oxs' tails - oxens' tails***~~

***b) Təki və cəmi eyni olan isimlər:***
*a deer's track - deer's tracks* — ~~***deers' tracks***~~
*a sheep's wool - sheep's wool* — ~~***sheeps' wool***~~

* **Lakin:** <u>**People**</u> sözü **2 cür yiyəlik hala keçir:**
**a) adamlar/camaat** mənasında <u>cəmlik</u> bildirir və ***yiyəlik halı <u>-'s</u> ilə düzəlir.***
*those people's greed – O adamların xəsisliyi*
b) **xalq** mənasında <u>təklik</u> bildirir və ***yiyəlik halı <u>-s'</u> ilə düzəlir.***
*these peoples' independence – Bu xalqların müstəqilliyi*



Scanned by TapScanner

**3.** **Cansız isimlərin** yiyəlik halı **isim + of + isim** düsturu ilə düzəlir və axırdan əvvələ tərcümə edilir. *Ex: the door **of** the room – otağın qapısı*
*the key **of** the car – maşının açarı*
*the cover **of** the book – kitabın üzü*

*** Qeyd:** ***"Of" həm canlı, həm də cansız isimlərin yiyəlik halını düzəldə bilər:***
Ex: *my sister's flat – the flat of my sister*

**4.** Mürəkkəb isimlərin yiyəlik halı **sonuncu sözə 's** əlavə etməklə düzəlir.
*Ex: Brother-in-law's shop (~~brother's-in-law, brothers'-in-law, brother-in-laws'~~)*

**5.** Eyni bir isim (əşya və ya varlıq) cümlədə 2 və daha çox adama **eyni anda** məxsus olduqda **(ortaq olanda)** yiyəlik hal şəkilçisi yalnız **sonuncuya** artırılır. Bu zaman isim də, xəbər də III şəxsin təkində olur.
*Ex: John and Jack**'s** car **is** in front of the building. (~~John and Jack's cars~~)*

**6.** Əgər sözü gedən isim (əşya və ya varlıq) adı çəkilənlərin hər birinə **ayrı-ayrılıqda** aiddirsə **(ortaq deyilsə)** yiyəlik hal şəkilçisi **hər ismin** sonuna artırılır. Bu zaman isim də, xəbər də cəmdə olur.
*Ex: John**'s** and Jack**'s** cars **are** in front of the building (~~John's and Jack's car~~)*

*** Nəticə:** Bu tip testləri həll etmək üçün **isimin tək və cəm olmasına** baxmaq kifayətdir. Əgər **isim təkdirsə *'s* də tək olacaq** və yalnız **sonuncu** ismə əlavə olunacaq. Əgər **isim cəmdirsə** onda ***'s* hər bir ismə** əlavə olunacaq.
**Müqayisə edin:**
*a) Kate and John**'s** **flat** **is** on the second floor.*(ikisinin ortaq bir mənzili var)
*b) Kate**'s** and John**'s** **flats** **are** on the second floor.* (hərənin öz mənzili var)

**Lakin:** 2 şeyi yadda saxlamaq lazımdır:
**a) bədən üzvləri ortaq ola bilməz!**
**b) sayılmayan isimlər cəmlənə bilməz!**

Ex: *Tom's and Nick's hair is black.*

Bu cümlədə **isim** (hair-saç) **təkdir**, deməli *'s* yalnız **sonuncu** şəxsə əlavə olunmalıdır, lakin, hər iki şəxsə əlavə olunub. Çünki, **saç** bədən üzvüdür və ortaq ola bilməz.
**(Hərənin öz saçı varsa, deməli hərənin öz 's-i var).**
Bəs, ***'s* hər bir ismə** əlavə olunubsa isim (hair) niyə təkdə qalıb? Çünki, saç sözü sayılmayan isimdir, cəmlənə bilmir.

**7. Sonu "s" ilə bitən adların** yiyəlik halı həm **-'s** ilə, həm də təkcə **apastrofla (')** düzələ bilər.
*Socrates's ideas – Socrates' ideas*
*Dickens's novels – Dickens' novels*



Scanned by TapScanner

**8.** ‘s yalnız yiyəlik hal deyil, həmçinin **is / has / us** sözlərinin qısa formasını göstərir. **‘s**-dən sonra **isim ya da sifət+isim, feli sifət + isim, say + isim, gerund** gələrsə və mütləq cümlədə ayrıca xəbər varsa bu yiyəlik hal sayılır. **‘s**-dən sonra digər nitq hissələri (artikl, sifət, feil, say, zərf, sözönü və s) gələrsə bu yiyəlik hal sayılmaz.

| **Yiyəlik hal hesab olunur!** | |
|---|---|
| **’s + isim** | *Mary**’s house** is in this street.* |
| *** ’s + sifət+isim** | *Diana**’s old photo** was placed above the bed.* |
| **’s + feli sifət + isim** | *Kate**’s newly published novel** was interesting.* |
| **’s + say + isim** | *The dancer**’s first performance** was wonderful.*<br>*They celebrated the scientist**’s 100<sup>th</sup> anniversary.*** |
| *** ’s + ing (gerund)** | *David**’s smoking** worried his parents.* |

| **Yiyəlik hal hesab olunmur!** | | |
|---|---|---|
| **’s + əvəzlik** | *=is* | *A. Christie**’s my** favourite writer.* |
| *** ’s + sifət** | *=is* | *My uncle’**s successful** in his new job.*<br>*His opinion’**s different** from mine.* |
| **’s + artikl**<br>(a / an / the) | *=is* | *Shakespeare’s **the** world-famous writer.* |
| **’s + sözönü**<br>(in / on / at və s.) | *=is* | *My brother’s **at** school now.* |
| **’s + say, rəqəm** | *=is* | *Nick**’s twenty-five** years old.* |
| **’s + feil (PII)** | *=has* | *The child’s **learned** the poem by heart.* |
| *** ’s+ feil (PI)** | *=is* | *Richard**’s leaving** in a few days.* |
| **’s + got** | *=has* | *Diana**’s got** a letter from her sister.* |
| **’s + been** | *=has* | *The patient**’s been** operated on.*<br>*This book**’s been** published this year.* |
| **’s + zərf** | *=has* | *Tom’**s perfectly** learned our traditions.*<br>*The flood**’s completely** damaged the crop.* |
| **’s + very** | *=is* | *This text**’s very** difficult for me.* |
| **’s + always** | *=is* | *My nephew**’s always** in a good shape.* |
| **’s + often** | *=is* | *Kate**’s often** invited to such parties.* |
| **’s + already** | *=has* | *Mr. Spencer**’s already** brought the morning paper.* |
| **’s + just** | *=has* | *Nick**’s just** phoned me to invite for dinner.* |
| **’s+going to** | *=is* | *My brother**’s going to** become an economist.* |
| **’s+fond of** | *=is* | *Helen**’s fond of** playing the guitar* |
| **’s+eager to** | *=is* | *My groupmate**’s eager to** help me.* |
| **let’s** | *=us* | ***Let’s** visit the newly-opened shop.* |
| **it’s** | *=is* | ***It’s** true that Baku is an ancient city.* |
| **There’s** | *=is* | ***There’s** another letter for your brother.* |
| **’s + not** | *=is* | *Mary**’s not** here at the moment.* |
| **’s + here** | *=is* | *Your brother**’s here**.* |



Scanned by TapScanner

* **'s-dən** sonra təkcə sifət gələrsə bu yiyəlik hal sayılmır, lakin sifətin yanında aid olduğu isim gələrsə bu yiyəlik hal hesab olunur.

*Ex: Mr. Smith's old.* (isim yoxdur, yiyəlik hal deyil)

*Mr. Smith's old photo was placed above the bed.*(isim var (**photo**), yiyəlik haldır)

* **'s** dən sonra **ing**-li söz gələrsə və cümlədə xəbər varsa, bu zaman **ing**-li söz ismin yerində işlənmiş gerunddur və belə cümlələrdə **-'s yiyəlik hal göstəricisidir**. Lakin cümlədə xəbər yoxdursa, bu zaman **ing**-li söz özü xəbərdir və **-'s yiyəlik hal göstəricisi deyil.**

*Ex: David's smoking* ***worried*** *his parents. (başqa feil var-deməli* **'s yiyəlik haldır)**.

*David's smoking in the yard.(başqa fel yoxdur, deməli* **-'s yiyəlik hal göstəricisi deyil)**

*** Nəticə:** Bir sözlə **'s** işlənən cümlədə **xəbər** yoxdursa, **'s** özü **xəbərdir** və bu cümlə **yiyəlik halda deyil !!!**

**9. Ad və soyadların yiyəlik halı:**

| | **Düzgün forma:** | **Yanlış forma:** |
|---|---|---|
| **Mr. ... +'s**<br>**Mrs. ... +'s** ***(bir nəfər)*** | *Mr. Brown's place*<br>*Mrs. Smith's children* | ~~*Mr. Browns'*~~<br>~~*Mrs. Smiths'*~~ |
| **The ... + s'** ***(ailə)*** | ***the*** *Fords' cars*<br>***the*** *Wilmots' house*<br>***the*** *Blacks' garden* | ~~*the Ford's*~~<br>~~*the Wilmot's house*~~<br>~~*the Black's garden*~~ |

**Nəticə:** *Əgər sözün əvvəlində* ***"the"*** *varsa, o zaman sözün sonunda* ***"-s"*** *(cəm şəkilçisi) də olmalıdır,* ***"the"*** *yoxdursa* ***"-s"*** *də yoxdur:*
Ex: ***The*** *Nicksons,* ***Mr.*** *Nickson* ~~*The Nickson*~~, ~~*Mr. Nicksons*~~

**10.** Aşağıdakı sözlərdən sonra vaxtilə **"home / shop / office"** sözləri işlənib, lakin indi işlənməsə də bu ifadələr (onlardan sonra gələn sözün hansı nitq hissəsi olmasından asılı olmayaraq) yiyəlik hal **hesab olunur**.

| | |
|---|---|
| **at my uncle's** (home) – *əmimgildə*<br>**at my aunt's** (home) – *xalamgildə*<br>**at my granny's** (home) – *nənəmgildə*<br>**at my friend's** (home) – *dostumgildə*<br>**at Kate's** (home) – *Keyt gildə*<br>**at Medea's** (home) – *Medea gildə* | **at the butcher's** (shop) – *ət dükanında*<br>**at the baker's** (shop) – *çörək dükanında*<br>**at the chemist's** (shop) – *əczaxanada*<br>**at the dentist's** (office) – *diş həkimində*<br>**at the grocer's** (shop) – *ərzaq dükanında*<br>**at the greengrocer's** (shop)–*tərəvəz dükanında* |

Bu mağaza adı bildirən isimlərin **cəm forması olmur.**

~~at the butchers'~~ ~~at the butcher'~~
~~at the bakers'~~ ~~at the baker'~~
~~at the chemists'~~ ~~at the chemist'~~
apastrofdan sonra **"s"** olmalıdır.



Scanned by TapScanner

* Yiyəlik halda olan ismin qarşısında gələn təyinedici söz (**artikl** (a/an)/**işarə əvəzliyi** (this/that/these/those)/**rəqəm/several/many/few/some**) birinci ismə ('s-dən əvvəlki) aid olur

| **Düzgün formalar:** | | **Yanlış formalar:** | |
|---|---|---|---|
| ***a / an + 's*** | ***a** year's contract* | ~~***a / an + s'***~~ | ~~***a** years' contract*~~ |
| | ***an** hour's lecture* | ~~***(a) few + 's***~~ | ~~***an** hours' lecture*~~ |
| ***(a) few + s'*** | ***few** years' experience* | ~~***many + 's***~~ | ~~***a few** month's course*~~ |
| | ***a few** months' course* | ~~***several + 's***~~ | ~~***many** year's research*~~ |
| ***many + s'*** | ***many** years' research* | ~~***rəqəm + 's***~~ | ~~***several** week's course*~~ |
| ***several + s'*** | ***several** minutes' break* | ~~***one + s'***~~ | ~~***four** mile's distance*~~ |
| | ***several** weeks' course* | ~~***this / that + s'***~~ | ~~***one** minutes' walk*~~ |
| ***rəqəm + s'*** ***(1 istisnadır)*** ***one + 's*** | ***four** miles' distance* | ~~***these/those + 's***~~ | ~~***this** pupils' answer*~~ |
| | ***two** months' rest* | | ~~***these** pupil's answer*~~ |
| | ***one** minute's walk* | | |
| ***this / that + 's*** | ***this** pupil's answer* ***that** doctor's advice* | | |
| ***these/those + s'*** | ***these** pupils' answer* ***those** doctors' advice* | | |

*** Diqqət:** **~~Todays, yesterdays, tomorrows, Earths, Suns, Moons, Worlds~~** heç vaxt cəmlənmirlər

| | |
|---|---|
| ***yesterday'**s flight* | ~~*yesterdays' flight*~~ |
| ***tomorrow'**s meeting* | ~~*tomorrows' meeting*~~ |
| ***today'**s events* | ~~*todays' events*~~ |
| ***the Sun'**s rays* | ~~*the Suns' rays*~~ |
| ***the Earth'**s atmosphere* | ~~*the Earths' atmosphere*~~ |
| ***the Moon'**s surface* | ~~*the Moons' surface*~~ |
| ***the World'**s birth rate* | ~~*the Worlds' birth rate*~~ |

**11.** Bəzən cansız varlıqların yiyəlik halı **'s** ilə düzəlir. Bunlar aşağıdakılardır:

**A) Zaman və məsafə bildirən sözlərlə:**

| | |
|---|---|
| *Ex:* a minute**'s** silence *(bir dəqiqəlik sükut)* | ~~*a minutes' silence*~~ |
| a week**'s** holiday *(bir həftəlik tətil)* | ~~*a weeks' holiday*~~ |
| two week**s'** holiday *(iki həftəlik tətil)* | ~~*two week's holiday*~~ |
| yesterday**'s** news *(dünənki xəbər)* | ~~*yesterdays' news*~~ |
| a mile**'s** distance *(bir mil məsafə)* | ~~*a miles' distance*~~ |
| two kilometre**s'** way *(2 kilometrlik yol)* | ~~*two kilometre's way*~~ |

**B) Fəsillərin, ayların, günlərin adını bildirən sözlərlə:**

*Ex:* Summer's day – *yay günü*
Sunday's rest – *bazar günü istirahəti*
December's frost – *dekabrın şaxtası*



Scanned by TapScanner

**C) Ölkə və şəhər adları bildirən isimlərlə**

*Ex:* Georgia's historical places – *Gürcüstanın tarixi məkanları*
Tbilisi's beauty – *Tbilisinin gözəlliyi*

**D) The Sun, The Moon, The Earth, The world, river, water, wind, ocean, city, town, ship, boat, vessel** və s. sözlərlə:

*Ex:* The Sun's ray – *günəşin şüası*
The world's population – *dünyanın əhalisi*
The ocean's roar – *okeanın gurultusu*
River's bank – *çayın sahili*

**Əlavə:** Aşağıdakı sözlər Yunan-Latın mənşəlidirlər və öz dillərinə uyğun cəmlənirlər:

<table>
<tr>
<td><u>us → i</u><br>cactus – cacti<br>focus – foci<br>stimulus – stimuli</td>
<td rowspan="3"><u>is → es</u><br>analysis – analyses<br>ellipsis – ellipses<br>diagnosis – diagnoses<br>oasis – oases<br>thesis – theses<br>crisis – crises<br>axis – axes<br>basis – bases<br>emphasis – emphases<br>hypothesis – hypotheses<br>parenthesis – parentheses<br>thesis – theses</td>
<td><u>um → a</u><br>bacterium – bacteria<br>curriculum – curricula<br>datum – data<br>medium – media<br>memorandum – memoranda</td>
</tr>
<tr>
<td rowspan="2"><u>on → a</u><br>phenomenon – phenomena<br>criterion – criteria</td>
<td><u>a → ae</u><br>antenna – antennae<br>formula – formulae</td>
</tr>
<tr>
<td>Daha ətraflı məlumat üçün:<br>www.myenglishpages.com</td>
</tr>
</table>



Scanned by TapScanner